# Quba: aqrar sahənin nəticələri fərəhlidir



## Fermerlər dövlətin dəstəyindən razılıq edirlər

**Məlum olduğu kimi, bu il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib. Tədbirdə çıxış edən dövlət başçısı bu ilin altı ayı ərzində ölkəmizdə qeyri-neft sektorunda, o cümlədən kənd təsərrüfatı istiqamətində görülən işlərə münasibətini bildirib, qarşıda duran vəzifələrlə bağlı tapşırıq və tövsiyələrini verib.**

Prezident vurğulayıb ki, bu ilin əvvəlindən qarşıya qoyulmuş vəzifələr icra edilir, ölkəmiz inamla inkişaf edir. Belə ki, ilin ilk altı ayı ərzində ölkə iqtisadiyyatında 2,4 faiz, qeyri-neft sektorunda 3,2 faiz, qeyri-neft sənayesində isə 15,7 faiz artım olmuşdur. Təbii ki, bu müsbət göstəricilərin arxasında əmək kollektivlərinin gərgin, səmərəli fəaliyyəti dayanır.

Təqdirəlayiq haldır ki, bu ilin əvvəlindən kənd təsərrüfatında rekord göstəricilər qeydə alınmışdır. Yəni, bu sahədə 13 faiz artım olmuş, bitkiçilik sahəsi isə birdən-birə 25 faiz artmışdır. Meyvəçilik sahəsində də vəziyyət yaxşıdır. Belə ki, burada 20 faiz artım müşahidə olunmuşdur. İlin sonuna kimi bu göstəricilərin daha da yüksələcəyi gözlənilir.

Ölkəmizdə tarixən ənənəvi meyvəçilik rayonu sayılan Qubanın, təbii ki, meyvəçiliyin sürətli inkişafında payı böyükdür. Bu barədə söz düşəndə RİH başçısı Ziyəddin Əliyev fəxrlə dedi ki, Quba rayonunda da son vaxtlar əldə olunan parlaq uğurlar, ilk növbədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qubanın sosial-iqtusadi inkişafına göstərdiyi böyük diqqət və qayğının sayəsində mümkün olub.

Qubanın iqtisadi yüksəliş yolunda olduğunu fakt və rəqəmlər də təsdiqləyir. Həqiqətən, rayonda bütün sahələrdə inkişaf dinamikası artıb. Bu ilin göstəriciləri xüsusilə fərəhlidir. Belə ki, 2019-cu ilin birinci yarısında Quba rayonunda ümumi məhsul buraxılışının həcmi 166 milyon 543 min 500 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 23 faiz artım), sənaye məhsullarının ümumi həcmi 17 milyon 389 min 500 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz artım), kənd təsərrüfatı məhsullarının həcmi 36 milyon 960 min 400 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artım) olmuşdur.



İcra hakimiyyətinin başçısı sonra vurğuladı ki, rayonda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün hər cür şərait yaradılır. Təkcə bu ilin əvvəlindən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən qubalı sahibkarlara 23 layihənin icrası üçün 441 min manat vəsait ayrılmışdır. Nəticədə onlarca yeni iş yerinin açılması üçün imkan yaranmışdır.

Heç vaxt uğurlar quru, boş yerdə əldə olunmur. Bunun üçün müvafiq şərait yaradılır. Rayonda meliorasiya sahəsində uğurlu tədbirlər görülmüşdür. Əkinə yararlı torpaq sahələrinin və kənd sakinlərinin su təminatının yaxşılaşdırılması məqsədilə rayonun 5 kəndində subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Bu ilin sonuna qədər daha 5 yaşayış məntəqəsində subartezian quyularının qazılaraq əhalinin istifadəsinə verilməsi nəzərdə tutulmuşdur.

Quba Dövlər Aqrar İnkişaf Mərkəzindən bildirdilər ki, bu il rayonda mövcud olan 10 min 525 hektar sahədə buğda və 1973 hektar arpa sahələri tam biçilmişdir. Buğda sahələrindən 28 min 101 ton və arpa sahələrindən 4718 ton taxıl biçilmişdir. Rayonda yüksək aqrotexniki qaydalar əsasında aparılan lazımi qulluq, eləcə də builki taxıl biçininin mütəşəkkil təşkili nəticəsində bu sahədə orta məhsuldarlıq xeyli yüksəlmişdir.

Qubada son illər heyvandarlıq da sürətlə inkişaf edir. Hazırda rayonda 62 min 115 baş qaramal, 261 min baş davar mövcuddur ki, bu, ötən illə müqayisədə xeyli çoxdur. Heyvanlar arasında profilaktik peyvəndləmə aparılmışdır.

Rayonda tərəvəzçilik sahəsi də diqqətdən kənarda qalmayıb. Cari ilin məhsulu üçün əkilmiş 1205 hektar kartof sahəsinin 561 hektarında məhsul yığımı başa çatdırılmış, nəticədə 5679,6 ton kartof toplanmışdır. 1590 hektar tərəvəz sahəsinin 487 hektarında tərəvəz yığımı aparılmış və ümumilikdə 4739 ton tərəvəz məhsulları istehsal edilmişdir.

Bəli, rayonda kənd təsərrüfatının bütün əsas istiqamətləri üzrə qarşıya qoyulan vəzifələr uğurla icra olunmaqdadır. Lakin Quba deyəndə, ilk növbədə hər birimizin gözləri qarşısında barlı, bərəkətli meyvə bağları canlanır. Rayonda meyvə bağlarının ümumi sahələrini artırılması ilə yanaşı, bağların məhsuldarlığının artırılması istiqamətində planlı işlər görülür.

Müşahidələr göstərir ki, bir tərəfdən dövlətin dəstəyi, o biri tərəfdən kənd təsərrüfatı məhsullarına satış bazarlarının genişlənməsi, xüsusən qonşu Rusiyada Quba meyvələrinə tələbatın artması, nəticə etibarilə bu sahədən əldə olunan gəlirlərin yüksəlməsinə səbəb olmuşdur. Bu da rayon əhalisi arasında meyvəçilyə marağı daha da artırmışdır. Bu il rayondan təkcə Rusiyaya minlərlə ton gilas və gavalı ixrac olunmuşdur ki, bundan həm bağbanlar, həm də dövlətimizin büdcəsi qazanmışdır.

Hazırda Qubanın meyvə bağlarında məhsul yığımının qızğın çağıdır. Quba Rayon Statistika İdarəsinin böyük mütəxəssisi Uğur Sultanov məlumat verdi ki, rayonda fermer və torpaq mülkiyyətçiləri meyvə məhsulu uğurla davam etdirirlər. İndiyədək 22 min 803 ton meyvə məhsulu yığılmışdır ki, bunun da böyük hissəsini alma (16 min 205 ton) və gilas (3 min 97 ton) təşkil edir.

**Bu yazını hazırlayarkən qubalı fermerlərin bir neçəsi ilə görüşüb, onların uğur və problemləri ilə tanış olmaq istədik. Rəsul Məmmədov Vladimirovka kənd sakinidir. O, atası və qardaşları ilə bu ailəyə məxsus pay torpaqlarında əsasən meyvə məhsulu becərməklə məşğuldur. Bu il 1,5 hektar sahədə alma, 1 hektar sahədə isə gilas-gavalı yetişdiriblər. Gilası satıb xeyli qazanc əldə ediblər. Alma bağında da məhsul boldur.**

**Rəsul bizimlə söbətində dedi:**

**--Bu yaxınlarda lizinq yolu ilə güzəştli qiymətlərlə becərmə traktoru almışıq. Bu, bizə becərmə işlərini vaxtında və daha keyfiyyətlə aparmağa kömək edəcək.**

**Yeri gəlmişkən, Vladimirovka kəndinin digər sakini, fermer Rövşən Baxışov də lizinq yolu traktor, çiləyici alıb. Rövşən 3 hektarda bağ salıb. Bu il bağlardan yüksək məhsuldarlıq gözləyir.**

**Rövşən söhbət zamanı son illər rayonda çox sayda meyvə soyuducu anbarlarının istifadəyə verilməsinin böyük faydası olduğunu söylədi. Məsələn, bu il topladığı meyvənin bir hissəsini məhz Vladimirovka kəndinin yaxınlığındakı soyuducu anbarlardan birinə təhvil verəcək ki, meyvəni sonra il boyu sərfəli qiymətlərlə sata bilsin.**

**Quba-Xaçmaz yolunun üzərində yerləşən Barlı kəndində təcrübəli fermer Güləmməd Məmmədov ilə də görüşdük. O dedi ki, hazırda Qubada meyvəçiliyin inkişafında ölkə Prezidenti möhtərəm İlham Əliyevin diqqət və qayğısı sayəsində yeni mərhələ başlayıb. Fermerlər bu gün bağlarda əvvəlki illərdə olduğundan daha həvəslə çalışırlar. Çünki onlar hər addımda dövlətin dəstəyini, qayğısını hiss edirlər.**



***Qəhrəman QASIMOV,***
***Qubada çıxan "Şəfəq" qəzetinin redaktoru,***
***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2019.- 1 sentyabr.- S.5.